**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI ELMİ-METODİKA ŞÖBƏSİ**



**Xalq artisti Rəşid Behbudovun anadan olmasının 95 illik yubileyi münasibətilə**

# Dünya, mənə nəyin qaldı

**(metodik vəsait)**

**B A K I- 2010**

## I. Həyat və yaradıcılığı

**Tələsin, insanlar, şadlıq görməyə,**
**Qəm-qüssə görməyə gecikin bir az.**
**Tələsin, insanlar, deyib-gülməyə,**
**Göz yaşı tökməkdən bezikin bir az...**

Azərbaycan mədəniyyətini və incəsənətini dünya arenasına çıxarmaqda misilsiz xidmətləri olan, milli musiqimizin gücü və Tanrının bəxş etdiyi ecazkar səsinin sehri ilə milyonların, milyardların qəlbini ovsunlayan bənzərsiz sənətkar Rəşid Behbudovun bu il 95 illik yubileyi qeyd olunur. Unudulmaz sənətkarın cismani yoxluğundan bizi 21 illik zaman kəsiyi ayırsa da, planetin, demək olar ki, bütün guşələrinə səpələnmiş, sayı-hesabı bilinməyən rəşidsevərləri həmin ilahi səs, təkrarsız avaz bir an da olsun tərk etmir, yalqız qoymur. Sənətin, sənətkarın böyüklüyü, əlçatmazlığı da bundadır.

14 dekabr 1915-ci ildə Məcid kişinin evində bir körpə dünyaya gəldi. Adını Rəşid qoydular. “Xoş taleyini Tanrı yazsın” dedilər. O zaman bir kimsənin ağlına da gəlməzdi ki, qədim Tiflisin köhnə məhəlləsində əslində Azərbaycanın sənət korifeyi doğuldu. Bunu qarşıdan gələn illər təsdiqləməli idi. O, qaraqaş, gözəl oğlan uşağı gələcəkdə milyonlarla insanı öz səsinin sehrinə salan Rəşid Behbudov idi. Rəşid Behbudovun gözəl və məlahətli səsi var idi. Gözəl səs Allah vergisidir. Xoşbəxtlikdən Rəşid Tanrının bu bəxşişinə layiq görülmüşdü. Amma İlahidən gələn bu varidatı Rəşid Behbudov məhz öz zəhməti, düşüncəsi, ən başlıcası, məsuliyyəti ilə daha da ustalıqla qorudu, onu eşidənlərə yüksək zövqlə, mədəniyyət və cazibədarlıqla təqdim etdi. Bəlkə də elə bu qabiliyyəti, məharəti, böyüklüyü, Rəşidə bənzərsizlik və əbədiyaşarlıq bağışladı. Bu gün Rəşidin yeri görünür…

Rəşid Behbudov ifaçılıq fəaliyyətinə başlayanda cəmi 15 yaşı vardı. Sözün əsl mənasında, qeyri-adi, gözəl və zəngin çalarlı səsə malik olan Rəşid Behbudov nəinki Azərbaycana, eləcə də keçmiş sovet məkanına məxsus ifaçılıq məktəbinin çox görkəmli nümayəndələrindən biri olmuşdur. Rəşid Behbudovdan sonra ikinci elə bir sənətkarımız yoxdur ki, dünyada 50-dən artıq xalqın mahnısını həmin xalqın dilində ifa etsin. Böyük müğənninin səsinin ahəngində, nəfəsində qəribə bir həzinlik, məlahət vardı. Bu səsin cazibəsi, əfsunu elə güclü idi ki, bu gün də Rəşid Behbudovun yeri göynəyir və görünür. Böyük sənətkarlıqdan öncə unudulmaz Rəşid Behbudov Azərbaycanı, onun təbii gözəlliklərini, insanlarını bütün varlığı ilə sevən vətəndaş idi. Anasından və Vətənindən eyni dərəcədə doya bilməyən, doğma torpağın hər qarışına baş əyməkdən yorulmayan Rəşid Behbudov bu sevgisini öz mahnılarında çox qüdrətlə ifadə edirdi. İndi də həmin nəğmələri eşidəndə qəribə hisslər keçirirsən. Yurdumuz haqqında oxuduğu mahnılarda çəkdiyi Azərbaycan harayı adamın varlığından bir üşütmə keçirirdi. Sanki bu səsin qüdrəti adamın ayağını torpağa bağlayaraq ruhunu göylərə aparırdı. Vətən istəyini səsin vasitəsilə bu cür dərinliklə bildirmək hər müğənniyə müyəssər deyildi. Bu, ancaq Rəşid Behbudova xas ilan nadir bir istedadın sayəsində baş verirdi.

Ustadı təkcə öz Vətənində sevmirdilər! Çoxları bunu indi də etiraf edir ki, vaxtilə dünya Azərbaycanı iki nemətinə-bir neftə, bir də Rəşidin səsinə görə tanıyırdı. Məmləkətlər, ölkələr dolaşmışdı onun səsi. Rəşid Behbudov keçmiş SSRİ-nin bütün respublikalarında, eləcə də Albaniya, Bolqarıstan, ərəb ölkələri, Hindistan, Çin, Finlandiya, İran, İraq, Türkiyə, Çili, Argentina və s. ölkələrdə dəfələrlə qastrol səfərlərində olmuşdu. O, yerlərə səsini aparan, nəğmələrini ərməğan edən Rəşid Vətənə ürəyi dolu sevgilərlə qayıdırdı. O, ayrılıqda da Azərbaycandan oxuyurdu, Vətənə dönəndə də.

Azərbaycan milli kinosunun inkişafında da Rəşid Behbudovun zəhməti çox olub. 1945-ci ildə "Arşın mal alan" filmində oynadığı Əsgər obrazı çox uğurlu və maraqlı alındı. Təkcə elə bu filmin ona gətirdiyi geniş şöhrət bir ömrə bəs edəcək əsl sənət müvəffəqiyyəti idi. "Bəxtiyar" filmində Bəxtiyar obrazı da sanki müğənninin elə öz bioqrafiyası idi. Azman sənətçimizin Azərbaycan opera səhnəsində bir sıra möhtəşəm tamaşalarda ifa etdiyi partiyalar vokal sənətimizin tarixində əhəmiyyətli yer tutmuşdur. Üzeyir Hacıbəyovun "Arşın mal alan"(Əsgər), Fikrət Əmirovun "Sevil" (Balaş) operalarında Rəşidin ifasındakı partiyalar həmişə yüksək qiymətləndirilmişdir.

Müxtəlif musiqi kollektivlərində, teatrlarda, ansambıllarda çalışan xalq artisti Rəşid Behbudov 1966-cı ildə Dövlət Mahnı Teatrını yaratdı. Bununla da o, Azərbaycan musiqi və estrada sənətinin müxtəlif janrlarını birləşdirərək incəsənətimizin yeni, original və pozulmaz səhifələrini yazdı. Dahi sənətçimizdən yadigar və nişanə qalan həmin Mahnı Teatrı bu gün böyük müğənninin adını daşıyır və yaşadır. Rəşid Behbudov elə böyük ürək sahibi idi ki, həmişə özündən sonra gələnləri düşünürdü. İndi onun yaratdığı bu sənət məbədində məhz Rəşid məktəbinin davamçıları fəaliyyət göstərirlər.

1989-cu il iyunun 9-da ölkənin musiqi mədəniyyətinə ağır itki üz verdi. Görkəmli müğənni, ictimai xadim, xalq artisri, Sosialist Əməyi Qəhrəmanı, keçmiş SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı Rəşid Məcid oğlu Behbudov 74 yaşında Moskva şəhərində vəfat etdi.

## II. Yubiley tədbirlərinin keçirilməsi.

Oxuyur Rəşid Behbudov. Az sonra bu ecazkar səsin kəməndinə dolanıb bircə özünü görürsən, özünlə baş-başa qalırsan. Bu səsi illər uzunu canlı dinləmişik. Həmişə də şirinliyi, saflığı, duruluğu ilə seçilib. Rəşid Behbudov səhnədə, ekran qarşısında gözümüz görə-görə yaşa dolsa da, səsi qocalmadı. Elə saf, elə duru çağlayırdı ki, sanki bir ovuc bulaq suyudur. Dünyasını dəyişməsindən 21 il ötməsinə baxmayaraq, biz yenə eyni məhəbbətlə, eyni sevgi ilə Rəşid Behbudovun lent yazılarını dinləyir, onu sıralarımızda yaşayırmış kimi görürük.

Rəşid Behbudova olan sevginin, ehtiramın nəticəsi olaraq onu bir daha yada salmaq üçün respublikamızın hər bir yerində sənətkarın yubileyi bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Yubiley tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq respublikamızın hər bir təhsil, mədəniyyət ocaqlarında Rəşid Behbudovun yaradıcılığı ilə bağlı bir sıra tədbirlər planı hazırlanmışdır ki, belə tədbirlərin siyahısı genişdir. Xalq artisti Rəşid Behbudovun yubileyinin geniş şəkildə qeyd olunması ilə əlaqədar olaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da tədbirlər planı hazırlanmışdır. Belə tədbirlərdən kitab sərgilərini, şeir müsabiqələrini, oxucu konfranslarını, səhərcikləri, xatirə gecələrini, ədəbi-bədii gecələri nümunə gətirmək olar. İlk öncə kitabxanada xalq artisti Rəşid Behbudovun yubileyi ilə bağlı sərginin keçirilməsi vacibdir. Sərgidə Rəşid Behbudovun şəkilləri ilə yanaşı onun bir çox illərdə verdiyi konsertlərin afişaları da nümayiş olunur. Həmçinin sərgidə görkəmli insanların Rəşid Behbudov haqqında söylədikləri sitatlar da öz əksini tapmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Oxuyur Rəşid Behbudov”, “Rəşid Behbudov-95”, “Rəşid sənəti əbədiyaşardır”, “Yer üzünü dolaşan səs”, “Dünyaya və zamana sığışmayan səs”, “Səni tərənnüm edirəm, Azərbaycanım!” və s. İndi isə sərginin nümunəsini veririk.

1. **Başlıq: “Rəşid sənəti əbədiyaşardır”**
2. **Şəkillərinin nümayişi.**
3. **Görkəmli insanların nəğməkar haqqında söylədikləri sitatlar.**
4. **Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.**
5. **Kitablarının nümayişi.**
6. **Rəşid Behbudov haqqında vidolentin nümayişi.**
7. **Şeir parçası.**

**Oxu, Rəşid!**
**Qışda dağlar açsın çiçək,**
**Oxu! Olaq elə həzin,**
**Elə kövrək,**
**Yaz buludu kimi dolaq,**
**İsti yağan yağış olaq.**

_______1_______

______2_______ _______3_______

_______4_______ _______5________

_______6_______ _______7________

**Sitatlar:**

1. Rəşid Behbudov nadir bir insandır, nadir şəxsiyyətdir. Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır.
   Heydər Əliyev
   Ulu öndər
2. Sevimli sənətkarımızın Azərbaycan şəlalələrinin şırıltısı kimi könül aşan ecazkar səsinin xoş sədası hələ bundan sonra da neçə-neçə ürəkləri fəth edəcəkdir.
   Lütfiyar İmanov
   Xalq artist
3. Böyük müğənninin yüksək professional və orijinal sənətkarlığı bu gün də ən müxtəlif zövqlü saysız-hesabsız tamaşaçının diqqətini cəlb edir. Bəli, Azərbaycan incəsənətinə beynəlxalq miqyasda böyük hörmət və nüfuz qazandırmış Rəşid Behbudovun qüdrətli sənəti onu dünya xalqlarının sevimlisinə çevirmişdir.
   Elmira Abbasova
   Professor
4. Eşq olsun ürəyində xalqını gəzdirən, əməllərində xalqının ruhunu yaşadan Vətən oğullarına! Belə oğullar hər yeni nəsillə birgə yenidən doğulur, ömrü xalqın ömrünə qarışır, yaşı da şərtiləşir.
   Bəxtiyar Vahabzadə
   Xalq şairi

5. Əsl müğənni və sənətkar ömrü yaşamış, öz yaradıcılığı ilə mədəniyyət tariximizin parlaq şəxsiyyətlərindən olan, görkəmli səhnə ustası və ictimai xadim Rəşid Behbudov öz həyatı və yaradıcılığı ilə zəngin bir irs qoyub getmişdir.
   Polad Bülbüloğlu
   Xalq aristi
6. Xalqımızın zəngin musiqi ənənələrinə əsaslanan, vokal sənətimizi novatorcasına inkişaf etdirib yeni mərhələyə qaldıran Rəşid Behbudov

xalqlar dostluğunu, bəşəri məhəbbəti tərənnüm edə-edə sənət aləmində qocaman çinar timsalına dönmüşdü.

Tofiq Quliyev
Xalq artisti

Kitabxanada Rəşid Behbudov yaradıcılığı ilə bağlı silsilə tədbirlərdən biri də oxucularla aparılan söhbətdir. Söhbətə kitabxanaçı belə başlaya bilər:

"Zəngin çalarlı, müstəsna səsə malik Rəşid Behbudov Azərbaycan vokal məktəbinin təkrarsız nümayəndələrindəndir. Azərbaycan ifaçılıq həyatını onsuz təsəvvür etmək mümkünmü?! Rəşid ifaçılığında hisslər necə də təbii və dolğun, necə də səmimidir! Çətin dolanan ailəyə kömək etmək üçün 12 yaşından işləməyə başlayan Rəşid Behbudov görün özü haqqında necə danışır: "Boyca balaca, amma çox cəld idim. Məni nəhəng buxar qazanlarının içərisinə salır, əlimə şlanq verib qazanların ərpini təmizləməyi tapşırırdılar. Orada hərarət çox yüksək olurdu. Istidən az qala boğulurdum. Ailədə uşaqların ən kiçiyi idim, anamın işə getməsi hamıdan çox məni narahat edər, yamac aşağı anamın dalınca qaçar, ağlayar, sonra saatlarla pəncərə qabağında oturub onun gəlişini gözləyərdim. O, xörək bişirəndə deyərdi:"Oğlum, sən bu işi görməsən də olar, ancaq öyrənsən yaxşıdır. Nə bilirsən, evlənəcəyin qız hər şeyi biləcək, ya yox?". Rəşid Behbudov 1933-cü ildə Dəmiryolu Texnikumuna daxil olur. Təhsil aldığı müddətdə tələbə özfəaliyyət orkestirində çalışır. Həmçinin hərbi xidməti zamanı da ordu ansamblında solistlik edir. Tez-tez cəbhədə konsertlər verir. Onun səsindəki məlahət insanları sevgiyə, saflığa, şəfqətə çağırır. Beləliklə, R.Behbudov Bakıda qalmaq qərarına gəlir. 1945-ci ildə Rza Təhmasib R.Behbudovu "Arşın mal alan" filminə dəvət edir. Filmdəki arşınmalçı rolu ona çox böyük şöhrət gətirir. "Arşın mal alan" filmindəki Əsgər rolu R.Behbudovun ilk rolu olmuşdur. Və bu rol onun ilk rolu olmağına baxmayaraq, R.Behbudovun bir kino aktyoru kimi böyük ümidlər verdiyini göstərir. Sonralar R.Behbudov müsahibələrində qeyd edirdi ki, "Məni, hara gedirdimsə "Arşın mal alan" filminin qəhrəmanı tacir Əsgər kimi alqışlayırdılar. "Arşın mal alan" Azərbaycan kinosunun bütün dünyada bayrağına çevrildi. Bu kino dünya ölkələrinin ekranlarını gəzdi. Çox vaxt öz konsertlərimlə filmin arxasınca getməli olurdum və Əsgər mənim ən gözəl "vizit vərəqəm idi". 1946-cı ildə bu filmə dövlət mükafatı verilir. Beləliklə, "Arşın mal alan" filmi R.Behbudova dünya şöhrəti gətirir, ona yeni yaradıcılıq yolları açır".

Azərbaycan musiqisinin görkəmli xadimi, xalq artisti Rəşid Behbudovun yubileyi ilə bağlı Bülbül adına orta ixtisas musiqi məktəbində də uşaqlarla böyük bir tədbir keçirilsə yaxşı olar. Tədbirdə iştirak edən qonaqlar ilk öncə R.Behbudov yaradıcılığından söhbət açırlar, sonra musiqi məktəbinin şagirdləri R.Behbudovun musiqilərindən ifa edirlər.

Kitabxanada keçirilən tədbirlərdən biri də ekskursiyadır. Kitabxanaçı kitabxanaya gələn oxucuları R.Behbudovun adını daşıyan Dövlət Mahnı Teatrına ekskursiyaya dəvət edə bilər. Mahnı Teatrına gələn uşaqları teatrın kollektivi yubilyarın yaradıcılığı ilə bir daha yaxından tanış edəcək. Uşaqlar orda öyrənəcəklər ki, artıq 45 ilə yaxın bir ömür yaşayan Dövlət Mahnı Teatrı o zamankı SSRİ məkanında analoqu olmayan bir sənət ocağı idi. R.Behbudov Mahnı Teatrını yaradarkən oxuduğu mahnıları böyük uğurla ifa etmişdi. Hələ o, vaxt

Dövlət Mahnı Teatrında hazırlanmış və bu gün də şirin bir xatirəyə dönən **“Səni tərənnüm edirəm, doğma Azərbaycanım!”** proqramı ilə dünyanın bir çox ölkələrinə qastrol səfərinə çıxdı. Böyük sənətkar canı qədər sevdiyi yurdunu dünyaya tanıtmaqla bərabər, onun musiqi sənətinin gücünü və qüdrətini də hər qitədə, hər kəsə göstərdi. O, Avropadan tutmuş Afrikaya qədər, Şərqdən tutmuş Qərbə qədər bütün dünyanı gəzdi. R.Behbudov müsahibələrinin birində belə deyirdi: “Mən səhnəyə el nəğmələriylə gəlmişəm. Azərbaycan xalqının toyunun, şənliyinin bəzəyi olan, yorğunluğunu çıxaran, işini avand eləyən mahnılarla gəlmişəm. Sonra həmin mahnılarla birgə dünyanı dolaşmışam. Harada olmuşamsa, orada Azərbaycan mahnılarının əks-sədasını qoyub gəlmişəm”.

Qeyd etdiyimiz kimi, 2010-cu il, əslində “Rəşid Behbudov ilidir” desək yanılmarıq. Bu il dünya şöhrətli müğənni Rəşid Behbudovun 95 illik yubileyi qeyd olunur. Bu münasibətlə kitabxanada keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Tədbirə kitabxanaçı bir çox qonaqlarla yanaşı müğənninin həyat yoldaşı Ceyran xanım və qızı Rəşidə xanımı dəvət edə bilər. Həmçinin tədbirdə görkəmli mədəniyyət xadimləri ilə yanaşı müğənnilər də iştirak edə bilər.

**“Xoş gördük, Azərbaycan”!** adlı ədəbi-bədii gecənin ssenarisini veririk. Səhnə Rəşid Behbudovun portreti, ona həsr olunmuş foto sərgi və gül dəstələri ilə bəzədilir. Tədbir Rəşid Behbudovun həyat və yaradıcılığı ilə bağlı vidolentin nümayiş olunması ilə açılır.
















Səhnə arxasında bu sözlər eşidilir: R.Behbudov təbəssümlə bizə baxır. Azərbaycanın nəğməkar oğlu səhnədə görünən kimi, onu gurultulu alqışlarla

alqışlayırlar. Rəşidin məlahətli səsi dalğa-dalğa qəlblərə yayılır. O, danışır, ancaq elə bil nəğmə deyir. Xalq şairi Səməd Vurğunun sözləri ilə sevimli nəğməkarımız doğma Azərbaycana sanki layla çalır.

***El bilir ki, sən mənimsən,***
***Yurdum, yuvam, məskənimsən,***
***Demək doğma Vətənimsən,***
***Ayrılarmı könül candan,***
***Azərbaycan, Azərbaycan!***

*(Aparıcılar səhnəyə daxil olurlar.)*

I aparıcı: Dərin ifa səmimiyyəti, gözəl vokal ustalığı, orijinal artistizmi ilə geniş dinləyici auditoriyasının çoxdan bəri sevimlisinə çevrilmiş Rəşid Behbudov müasir Azərbaycan profesional ifaçılıq sənətinin ən qüdrətli nümayəndəsidir. Böyük müğənni təkcə respublikamızın deyil, bütün ölkəmizin fəxr etdiyi sənətkarlardandır. O, dəfələrlə xarici ölkələrdə qastrol səfərlərində olmuş, Azərbaycan vokal ifaçılığı salnaməsinə parlaq səhifələr yazmışdır. Olduğu hər bir yerdə onun vizit vərəqi "Azərbaycan", "Bakı" sözləri doğma yurdumuzu tərənnüm edən mahnılardır.

II aparıcı: Qeyd etdiyimiz kimi R.Behbudov mahnıları ilə Azərbaycanımızı dünyaya tanıtmış əvəzsiz sənətkarlardan biridir. Onun mahnılarını saymaqla qurtaran deyil. Bu mahnılar Azərbaycanda da, saysız-hesabsız xarici ölkələrdə də eyni maraqla dinlənilir. Onun baş rolda çəkildiyi "Arşın mal alan" filmi dünyanın 60-dək ölkəsində sevilə-sevilə baxılıb. "1001-ci qastrol", "Bəxtiyar" filmlərində də R.Behbudovun ürəklərə nüfuz edən mahnıları və bir də aktyor kimi yaratdığı rolların şirinliyi qalıb bizlərə. Bu filmdəki mahnılar sonralar dillər əzbəri olmuş, görkəmli müğənnilərimiz onları dönə-dönə ifa etmişlər.

*(Oxucular Rəşid Behbudovun "Bəxtiyar" kinofilmindən "Bakı" mahnısını səsləndirirlər.)*

***Bakı,əziz şəhər, mehriban diyar,***
***Sinəndə boy atıb oldum bəxtiyar.***
***Səndə ilk eşqimin yadigarı var.***

***Nəqərat:***

***Sən mənim söhbətim,***
***Şərəfim, şöhrətim,***
***Tükənməz dövlətim,***
***Əzizimsən, gözəl Bakı.***

***Ürəyim səninlə edir iftixar,***
***Xəzərin qoynunda saldın buruqlar.***
***Qəlbimdə qəlbinin hərəkəti var.***

***Nəqərat:***

***Baxdıqca doymuram gözəlliyindən,***
***Şirin nəğmə qədər sevimlisən sən.***
***Hər yerdə, hər yanda deyəcəyəm mən:***

***Nəqərat:***

II aparıcı: Rəşid Behbudov Azərbaycan xalq mahnılarına qayğıkeş münasibət bəsləyir, onu yeni çalarlarla zənginləşdirir. R.Behbudov öz təkraredilməz səsi, xarici görünüşü, artistlik istedadı ilə böyük musiqiçi və gözəl müğənni idi. O, həmçinin Tofiq Quliyev ilə birlikdə Azərbaycanda ilk estrada mahnılarının yaradıcısı olmuşdur. R.Behbudov özünəməxsus ustalığı ilə həm müasir estrada mahnılarını çox gözəl ifa edirdi, həm də Azərbaycan xalq musiqisindən gözəl mahnıları götürüb onları müasirləşdirirdi və müasir estrada səviyyəsinə qaldırırdı. Azərbaycanın xalq mahnıları, musiqi folkloru, müasir estrada mahnılarının müasir şəkildə sintezini yarada bilən də məhz Rəşid Behbudov olmuşdur. R.Behbudov müğənni kimi, musiqiçi kimi çoxşaxəli bir insan idi. O, ilbəil öz üzərində işləyərək yaradıcılığını daim inkişaf etdirir, daim zənginləşdirirdi.

*(Oxucular Oqtay Şamilin “Arşınmalçı” şeirini söyləyirlər)*

***Oxucu:*** ***Körpələr yatdılar doğma səsində,***
***Könüllər açıldı yaz nəfəsində.***
***Səsini nur kimi içdik, ay ustad***
***Nəğmənlə kökləndik, açdıq qol-qanad.***

***Uzaq ölkələrə düşəndə qonaq,***
***Sənin şöhrətindən ilk aldıq soraq.***
***Sən bizə tanışsan, eşit dedilər,***
***“Bakı”...”Neft”...bir də ki...”Rəşid” dedilər!***

***Sevindik dünyada Rəşidimiz var,***
***Həmişə cavandır, daim ixtiyar.***
***Çağlayan-çağıran bulaqdı, bulaq***
***Nə qədər nəğmə var o, oxuyacaq!***

***Dolaşdın cahanı sən arşın-arşın,***
***Hər ürək ünvanın , sənin tanışın.***
***Boxçanda hamının dərdi, əlacı,***
***Həmişə əziz ol, ay arşınmalçı...***

I aparıcı: R.Behbudov müxtəlif yanır və üslublarda yazılmış bəstəkar mahnı və romanslarından, klassik vokal nümunələri və opera ariyalarından başqa, Azərbaycan xalq mahnılarının da misilsiz ifaçısı idi. Xalq musiqisi xəzinəsinə qəlbən bağlılıq ona dövrünün görkəmli xanəndəsi olmuş atası Məcid Behbudovdan irsən keçmişdi. Öz ifaçılığında klassik xanəndəlik sənətinin kanonlarına formal olaraq riayət etməsə də, qədim xalq mahnılarını müasir ifaçılıq üslubunda təsvir edərək, onların musiqi dilinin ən dərin qatlarında gizlənmiş incəlikləri, məna çalarlarını üzə çıxararaq bu mahnılara yeni ruh, yeni nəfəs, yeni həyat verirdi. İstər xalq, istərsə də bəstəkar mahnılarının populyarlaşmasında Rəşid Behbudovun xidmətləri əvəzsizdir. O, bu əsərləri sadəcə ifa etmirdi, ona öz möhürünü vururdu. Sənətçinin böyük şövq və məhəbbətlə oxuduğu "Ana"(musiqisi Cahangir Cahangirovun, sözləri İslam Səfərlinin) mahnısı nə qədər təsirli və unudulmazdır. Bu çırpıntının titrək sədaları adamın varlığını səs adlı bir xilqətin gücü qarşısında ram edir. Duyursan ki, əslində dilə gələn kövrək bir ürəkdir.

***Gözümün nuru, canım ana,***
***Böyütdün sən məni, yana-yana,***
***Saçının ağına, qarasına qurbanam,***
***Könlünün o həzin laylasına qurbanam!***

Onun ifasında "Aman ovçu", "Ağacda leylək", "Gözəlim sənsən", "Küçələrə su səpmişəm", "Ay nənə", "Ləbu-ləb", "Evləri var xana-xana", "Ay laçın" kimi xalq mahnılarının hər biri insan qəlbinin ən həzin duyğularını əks etdirən sehrli bir avaz kimi səslənirdi.

II aparıcı: Rəşid Behbudov canı, qanı, bütün varlığı ilə xalqına, Vətəninə bağlı sənətkar idi. O, dünyanın ən məşhur teatrlarının səhnələrində, konsert salonlarında Azərbaycan musiqisini sevə-sevə, sevdirə-sevdirə təbliğ və tərənnüm

etmiş, hər dəfə də “anşlaq”la, sürəkli tamaşaçı alqışları ilə qarşılanmışdır. Planetin, demək olar ki, hər guşəsində, ən böyük şəhərlərin küçələrini Azərbaycan xəritəsinin fonunda qollarını qartal kimi açıb pərvazlanmaq istəyən Rəşidin afişaları bəzəyirdi. Rəşid Behbudov milli köklərə nə qədər bağlı vətənpərvər sənətkar olsa da, bir o qədər beynəlmiləlçi idi. Görəsən, tarixdə ayrı-ayrı xalqların dillərində Rəşid qədər mahnılar ifa edən ikinci bir müğənni olmuşdurmu? Onun repertuarında dünyanın 70-dən çox xalqının dillərində mahnılar olmuşdur. Özü də elə oxumuşdur ki, həmin xalqların tamaşaçıları özləri onun ifasına valeh olmuşlar. Görkəmli sənətkar həmçinin kino aktyoru kimi 4 bədii filmdə “Arşın mal alan”(1945), “Doğma xalqıma”(1954), “Bəxtiyar”(1955), və “1001-ci qastrol”(1974) filmlərində baş rollarda çəkilmiş və böyük uğur qazanmışdır. Bundan başqa o, 30-dək sənədli filmdə və kinojurnallarda da çəkilmişdir. Hələ gənclik illərində Rəşid Behbudovun yaratdığı kino obrazları yalnız onun səsinə görə deyil, həm də yüksək ifaçılıq bacarığına görə neçə-neçə konorejissorun diqqətini cəlb etmişdi. Bu rollar kino sənətimizin şanlı səhifələrinə çevrilmişdir.

I aparıcı: R.Behbudov Azərbaycan musiqisində yeni bir dövr yaratdı. O, harada olursa, olsun Azərbaycanı vəsv edirdi. Repertuarı da doğma Azərbaycan, onun əsrarəngiz gözəlliyi haqqında xalq və müəllif mahnıları ilə zəngin idi. “Azərbaycan”, “Qalalıyam”, “Ləbu-ləb”, “Lalələr”, “Qızıl üzük”, “Sevgilim”, “Ey Vətən” və “Bakı” haqqında onlarla mahnıları bu gün də sevilə-sevilə dinlənilir.

*(Musiqi məktəbinin şagirdlərinin ifasında Mirvarid Dilbazinin “Oxu Rəşid” adlı şeirini dinləyirik.)*

***I oxucu:*** ***Oxu, Rəşid!***
***Qışda dağlar açsın çiçək,***
***Oxu! Olaq elə həzin,***
***Elə kövrək,***
***Yaz buludu kimi dolaq,***
***İsti yağan yağış olaq.***

***Elə keçək özümüzdən,***
***Könlümüzün çəməninə***
***Şeh çilənsin gözümüzdən...***

***II oxucu:*** ***Xəyal xəyala calansın,***
***Ürəyimiz havalansın,***
***Sönmüş ocaqda od yansın,***

***Kül altında "qor" közərsin,***
***Xəyalımız Gül bağlarında gül dərsin.***

***Oxu! şimşək kimi çaxaq,***
***Həsrət bəndlərini yıxaq,***
***Ürəkdə sellər çağlasın,***
***Yarpaq tökmüş könlümüzün***
***Gülləri qönçə bağlasın...***
***Bülbüllər gəlsin bu bağa.***
***Oxu, Ələsgər di ilə,***
***Səni yetirən torpağa,***
***Səni böyüdən bu xalqa***
***Olsun canımız sadağa.***

I aparıcı: Rəşid Behbudov saysız-hesabsız beynəlxalq, ümumittifaq və respublika dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, ən mötəbər beynəlxalq festivalların qalibi olmuşdur. İctimai xadim R.Behbudov Azərbaycan Dövlət Mükafatları laureatı, Lenin Ordeni, Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu ordenləri ilə təltif olunmuş, 1959-cu ildə "SSRİ xalq artisti" olmuş, 1980-cı ildə isə "Sosialist Əməyi Qəhrəmanı"adına layiq görülmüşdür. Onu da qeyd etmək lazımdır ki, Rəşid Behbudov Sovetlər Birliyində yaşayan müğənnilər arasında bu ada layiq görülmüş ilk sənətkardır. R.Behbudov həmçinin "Dağıstan xalq artisti", "Gürcüstan əməkdar incəsənət xadimi" fəxri adlarını da almışdı.

Rəşid Behbudovun həyatda ən böyük mükafatı isə doğma xalqının ona olan tükənməz və əbədi məhəbbətidir.

*(Oxucular Həmid Abbasın "**Sənət meydanının Rəşidi getdi**" şeirini söyləyirlər.)*

***Bakıdan uzaqda, isti yay günü,***
***Həsrətə dözmədi, üşüdü getdi.***
***Bu xəbər sarsıtdı, göynətdi bizi,***
***Sənət meydanının Rəşidi getdi.***

***Susdu bağçamızın, susdu bülbülü,***
***Bir də "arşınmalçı" gəzməzmi eli?***
***Səsində Xəzəri, mavi Göy gölü.***
***Ölkədən-ölkəyə daşıdı getdi.***

***Sərhəd tanımadı sözü, nəfəsi,***
***Gözəl mahnılardır elə töhfəsi.***
***Yüz illər keçsə də dəyişməz səsi***

***Əbədi bir ömür yaşadı, getdi.***

II aparıcı: 1989-cu il iyunun 9-da ölkənin musiqi mədəniyyətinə ağır itki üz verdi. Görkəmli müğənni, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı Rəşid Məcid oğlu Behbudov 74 yaşında Moskva şəhərində vəfat etdi. R.Behbudovun itkisi böyük və əvəzsiz itki oldu. Müğənninin vəfatı xəbəri Rəşid Behbudovun parlaq istedadını, ilhamlı, parlaq sənətini əziz tutan hər bir adamın qəlbində dərin kədər hissi doğurdu. Bəli, sən bizi bağışla, böyük ustad. Hər dəfə ekranlarda pencəyini çiynində tutaraq bağrı dağlı lalələrin arasında onların boyunu oxşayır, gözəlliyini, məhzunluğunu dilə gətirirdin.

***Nə vaxtdır Rəşidin***
***gözü yoldadır,***
***Bir qonaq gələsiz***
***bizə lalələr!***

Bu gün Rəşidin səsi bizimlədir, cismi torpağa tapşırılıb. Sevimli sənətkarımızın Azərbaycan şəlalərinin şırıltısı kimi könül açan ecazkar səsinin xoş sədası hələ bundan sonra da neçə-neçə ürəkləri fəth edəcəkdir.

***Tədbirin sonunda İctimaiyyət nümayəndələri ilə yanaşı kitabxanaçılar da SSRİ Xalq artisti , Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovun məzarını ziyarət etmiş, qəbirüstü abidənin önünə əkil və gül-dəstələri qoymuşdular.***

***S O N***

## Ədəbiyyat siyahısı

**Internetdə:**
www.google.az

**Dövri mətbuatda:**


1. Abbasov İ. Dünyaya və zamana sığmayan səs // Xalq qəzeti.- 2005.- 14 dekabr.- S.5.
2. Abbaslı.T. Səslər səsi // Mədəniyyət. - 2005. - 17 dekabr.- S.4.
3. Ağasiyev. M. Həmişəyaşar // Qobustan.- 2010.- N 2. - S.24-27.
4. Dilbazi. M.(1912-2002). Oxu, Rəşid // Seçilmiş əsərləri. - B.: Lider, 2004.- S.110-111.
5. Xəlilzadə. F. O səsin qüdrəti // Azərbaycan.- 2005.- 14 dekabr.- S.6.
6. Qarayev. T. Ürəyimizdən keçən insanlar // Vəfa.- 2006.- №1-2.- S.38-39.
7. Rəşid Behbudov - 90 : Mədəniyyət naziri Polad Bülbüloğlunun çıxışı // Mədəniyyət.- 2005.- 17 dekabr.- S.2.
8. Rəşid Behbudovun 90 illiyinə həsr edilmiş yubiley gecəsi // Xalq qəzeti.- 2005.- 15 dekabr. - S.7.



Tərtib edən: Könül Səmədzadə – F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi-metodika şöbəsinin baş kitabxanaçısı.

Redaktor: Fizurə Quliyeva – F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru